

Böyük rəqqasələr və aktrisaların istedadı ilə əlaqələndirilən Leyla Vəkilovanın pedaqoji fəaliyyətinin məzmunu xüsusi diqqət tələb edir. Böyük pedaqoq şagirdlərdə intellektuallıq, aktyorluq və peşəkarlıq kimi keyfiyyətləri tərbiyə etməyə çalışırdı.

# Balet aktyorlarının formalaşmasında musiqinin rolu

Əgər rəqqas- tələbələrin gələcək balet fəaliyyətinə baxışları intellektual səviyyədən asılıdırsa, inkişafa meyllidirsə, onda həmin ifaçının texnikimürəkkəb hərəkətləri tamaşaya dərin məzmun verəcəkdir.

Leyla xanım şəxsi səhnə yaradıcılığı sayəsində bilirdi ki, hər bir balet obrazı düşünülmüş və gərgin fəaliyyət tələb edir. Məhz belə dərin əməyin nəticəsi aktyorun daim böyük qələbəsinə səbəb ola bilər. Ona görə də tədris fəaliyyətinin ilk günündən etibarən o, buraxılış siniflərinin şagirdlərinin diqqətini aktyorluq sənətinin aşağıdakı müəyyən olunmuş qanunlarına yönəldirdi:

- səhnədə diqqət;
-səhnədə məqsədyönlülük;
-səhnədə ünsiyyət.

Aydındır ki, aktyorluğun sadalanan bu qanunlarının mənimsənilməsi, tamaşanın Stanislavski sistemi əsasında yaradılması bütövlükdə balet aktyorları üçün də aktualdır.

Leyla Vəkilova hər şeydən əvvəl, sinfin diqqətini maraqlı və düşünülmüş mövzulara yönəldirdi ki, bu da öz növbəsində şagirdlərin qarşısında aktyorluq peşəsinin yeni sirlərini açırdı. Şagirdlərdə belə bir fikir yaranırdı ki, bütün bunlar verilən tapşırıqların həllini yüngülləşdirir və onlar aktyorluğun texniki priyomlarını daha dərindən mənimsəməyə çalışırdılar.

Bundan başqa, Vəkilova konsertmeysterin fəaliyyətinə də rəhbərlik etməyi bacarır, hisslərin və hərəkətlərin musiqi ilə harmonik sintezinə nail ola bilirdi. Ancaq belə olan halda özündə ruhun və düşüncənin möhtəşəm formada əlaqəsindən ibarət olan böyük vəhdət yaranır. İstənilən rəqs hərəkəti zamanı rəqqas xoreoqrafik hərəkətləri, hər şeydən əvvəl düşüncələrin məntiqliyini və qəhrəmanların hiss və həyəcanlarını əlaqələndirməlidir. Səhnə tamaşasının konkret və ya ümumi məzmununda yaranan "pa"-nın parlaq ifası zamanı rəqqasların texnikası qəhrəmanın hisslərinin vasitəçisi olmaqla, tamaşaçını heyrətə gətirməlidir.

Bu istiqamətdə işləməklə pedaqoq Vəkilova şagirdləri və özü üçün şübhə doğurmayan, məzmununda aydın düşüncə və təmiz ideyalar tələb edən, hərəkətlərdə möhkəmliyi, həyəcanların dərinliyində ehtirası, rəqsin obrazlılığını özündə birləşdirən platformanı müəyyənləşdirmişdir.

Çox vaxt Vəkilova birlikdə çalışdığı qrupa nümunə olmağa çalışır və hər bir personaja dəqiq müəyyənlik axtarırdı. Uğurlu xarakteristika sayəsində obrazın daxili mahiyyətini açmaq və hərəkətlərdə məqsədyönlülüyü müəyyən etmək olar. O, şagirdlərə adətən xoreoqrafik etüd üçün süjeti ekspromt şəkildə birləşdirməyi təklif edirdi.

Bu və ya digər metodik priyomlardan istifadə etməklə Vəkilova öz işində düşünülməmiş heç nə buraxmadan professionalizm məcrası yaratmışdır. O, bilirdi ki, bir çox aktyor- pedaqoqlar intuisiyanın yaxşı inkişafına əsaslanan təcrübədə formalaşır. O, həmçinin onu da bilirdi ki, şagirdlərə yalnız rəqs mühitində şüurlu surətdə səhnə davranışı göstərmək çətindir. Böyük pedaqoq öz sələflərinin balet tamaşasının strukturunda pantomima hərəkətlərinin mütləq olması nöqteyi-nəzərini dəstəkləyirdi. Məhz pantomimik hərəkətlər sayəsində şagirdlərə səhnə fəaliyyətində şüurluluğun nədən ibarət olduğunu göstərmək asan olur. O, obraz plastikası və musiqinin harmoniyası olan pantomimada çıxış edirdi.

Verilən tapşırığı realizə etməklə Vəkilova aparıcı rolu musiqiyə verirdi, çünki o, balet tamaşasının icrasında ifa olunan obrazlarda yaxşı nəticəyə nail olmaq üçün əsas səbəb- amil idi.

Musiqi və məntiqin vəhdəti musiqi səslərinin xoreoqrafik hərəkətlərlə çatdırılmasında əks edir. Burada musiqi notları ailəsi ilə ayağın beş əsas vəziyyətinin yaxın əlaqəsi meydana çıxır. Bax, budur səhnədə yaranan möcüzə! Pedaqoji nöqteyi-nəzərindən bu, aktyorluq peşəsi dərslərində musiqinin tədrisinin əhəmiyyətini təsdiqləyir.

Bizim səhnə təcrübəmizdən çıxan nəticədən aydın olur ki, rəqsdə və ya səhnədə obrazın musiqi ehtiyacını ödəmək lazımdır. Əks təqdirdə, rəqqas hətta texnikaya əla yiyələnmiş olsa da, hərəkətin rəngarəngliyindən istifadə etməklə mexaniki kuklanı xatırladır. Rəqsdə ritmlilik rəqs hərəkətlərindən ritmin icrası ilə bitmir. Musiqi ritmi musiqi fikirlərinin inkişafını çatdırır. Burada çalışma və balet rəqqasının ritmi plastik obrazın tamamlanmış şərtidir. Əgər rəqqas özü üçün müəyyən edə bilsə ki, bu ritmi edir, onda yaradıcı fikirləri həyata keçirmək üçün real imkanlar əldə edə bilər.

Verilmiş musiqi parçasının təhlilində əsaslanmış, metodik üsullar da az effektli deyil. Bu təhlilin mahiyyəti buna əsaslanır:

- şagirdlərə musiqi mətnindən aparıcı frazanı tapmağı öyrətmək;
- musiqi ritmində yaşamaq, yəni öz səhnə hərəkətlərini musiqinin köməyi ilə tənzimləmək;
- musiqi əsasında fantaziya etməyi (xoreoqrafik nöqteyi-nəzərdən) inkişaf etdirmək.

Şagirdlərin belə hazırlıqlarının nəticəsi onların professional vərdişlər əldə etmələrinə xidmət edir: onların yaradıcı fikirlərini və məxsusi aktyorluq həyəcanlarını dərinləşdirmək.

Klassik rəqsin öyrənilməsinə başlayanda ritmik rəqsi xarakterizə edən musiqi parçaları daha çox effektli sayılır. Sonrakı öyrətmə mərhələlərində isə artan çətinliklər əsasında yaranmış (yəni sadədən mürəkkəbə) rol üstündə iş daha çox diqqət mərkəzinə qoyulur: tamaşadan parçalar, bütöv aktlar, balet süjetinin qısaldılmış kompozisiyası.

Konsertlərin, tədris tamaşalarının rəngarəngliyi və əhatəliliyi bizə ümummərtəb tamaşa imtahanları variantını mümkün saymaqla icazə verir. Belə bir eksperiment nəinki buraxılış şagirdlərinin, eləcə də qabiliyyətli şagirdlərin yaradıcı imkanlarını müəyyən etməyə imkan verərdi. Belə nəticəvi iş uşaqların və müəllimlərin yaradıcı birliyinə səbəb olur, kollektivliyi və nizam-intizamlılıq hissini tərbiyə edir.

Tədris konsertləri və tamaşaları aktyorluq ustalıqları sahəsində, eləcə də "məktəb" rəqsi texnikasının nailiyyətlərini sübut edir. Bunlar şagirdlərə musiqi və plastik hərəkətlərin birliyində yaşamağa imkan verir.

Xoreoqrafın yaradıcı sərbəstliyinin musiqiyə müra-

ciətində belə bir növü də təcrübədən keçirilir. Yazılmış librettoya və bir çox səhnələrə əsasən musiqili mətnlər yazılır. Burada xoreoqraf məzmunun partitura əsasında dəyişdirilməsi və müxtəlif bəstəkarların ayrıca musiqili pyeslərlə, maraq oyadan inkişaf yolları ilə, çox planlı süjetlərlə, dəqiq qeydə alınmış kulminasiya nöqtəsilə, məntiqi açılışı ilə zəngin olmalıdır.

Bəzən rəqs süitalarının müasir quruluşlara əlavə olunması mübahisə oyadır.

Balet quruluşunun musiqili dramaturgiyası ssenarili dramaturgiyadan məhdudiyyətlə çıxarılmalı, özü ilə xoreoqrafik dramaturgiyanı müəyyənləşdirməlidir. Musiqinin və dramaturgiyanın ifadəli hərəkətlərinin uğuruna gətirib çıxara bilər.

Xoreoqrafik forma ideyanın açılışına xidmət edir. Həmçinin o, bir neçə şəkil və aktı bütöv, tam şəklinə gətirib çıxarır. Tövsiyə edilir ki, folklor və klassik rəqsləri əhatələndirmək tendensiyalarına əsaslanmaq lazımdır.

Hesab edirik ki, zamanın ruhuna sinkretik musiqi formaları cavab verir. Quruluşçunun musiqini dramatik orqanizə edən aparıcıya diqqətsizliyi yaradıcılıq uğursuzluğuna gətirib çıxara bilər.

Klassik rəqsin inkişafının müəyyən dövrlərində baletmeysterin fikri musiqidə yalnız xarakterik və ritmik dayaq axtarırdısa, indiki zamanda isə musiqi fakturanın və formanın stimullaşdırılmasına çağırır.

Adətən musiqili məzmunun azlığı, mövzunun qeyri-dəqiqliyi, fakturanın adiliyi, simfonik inkişafın olmaması, individual müxtəlifliyin çatışmaması və librettonun zəifliyi baletmeysterin əsas uğursuzluğudur.

Müasir xoreoqrafik əsərin yaradılmasında bəstəkar mövzuda heç bir mövzu sadələşməsinə yol verməməlidir.

Tamaşanın uğurlu alınması üçün:

- tam əhatəli musiqili dramaturgiya;
- musiqili obrazların zənginliyi;
- xoreoqrafik dramın simfonik inkişafı lazımdır.

**• Samir SƏMƏDOV**

## Ədəbiyyat


1. Almaszadə Q. İlhamlı usta. "BR", B., 2000
2. Həsənov K. Azərbaycanın klassik baleti. B., 2000.
3. Zülfüqarova L. Debütdən 20 il sonra. "Teatr", B.,1964.
4. Qaşqay X. Azərbaycanın balet teatrı. M., 1987.


# Naxçıvanın

Ümummilli liderimiz bu sözləri Naxçıvan şəhərində Mömünə xatun məqbərəsini ziyarət edərkən söyləyib.

Ulu öndər "bizlər çox vaxt bu abidəni gözəl memarlıq abidəsi kimi təbliğ edirik" deyərək bu sənət əsərinin çoxəsrlik dövlətçilik ənənələrimizin yaşadılması istiqamətində oynadığı rola da toxunub: "Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün bəlkə daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu, təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir. Əgər dövlətçilik o qədər yüksək səviyyədə olmasaydı, onlar bu cür abidənin yaradılması barədə qərar qəbul edə bilərdilərmi?".

### Tariximizin tədqiq və təbliğinə maraq artıb

"Naxçıvan Muxtar Respublikası ərazisindəki tarixi və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" Muxtar Respublika Ali Məclisi sədrinin imzaladığı sərəncam əsasında burada 1162 abidə qeydə alınıb, onlardan 56-sı isə dünya əhəmiyyətli abidə olub.

Hər biri də xalqımızın zəngin və çoxəsrlik dövlətçilik ənənələrini özündə yaşadan memarlıq inciləridir. O incilər ki, onlar tariximizin on ikinci yüzilliyindən başlayaraq bugünümüzə qədər ayrı-ayrı dövrlərdə, məqamlarda inşa olunublar, iqtisadi qüdrətimizi, gücümüzü, başlıcası isə varlığımızı dünyanın yaxın-uzaq ölkələrinə tanıdıblar.

Əslinə qalsa həyata keçirilən bu tədbirlər də xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında muxtar respublikanın uzun müddət üçün işlənib hazırlanmış inkişaf strategiyasından qaynaqlanıb.

AMEA-nın Naxçıvan Bölməsinin yaradılmasına həsr olunan geniş müşavirədə "Naxçıvan ərazisində həddindən çox dünyamiqyaslı tarixi-memarlıq abidələri var...